

# “Aşiq dərviş” Bakıda

## *Özbək miniatürünün Şərq hekayətləri*

**Azərbaycan Milli İncəsənət Muzeyində Özbəkistanın müasir miniatürçü rəssamlarının əsərlərindən ibarət “Aşiq dərviş” adlı sərgi açılıb. Burada 80-dən çox təsviri və dekorativ-tətbiqi sənət nümunəsi nümayiş olunur.**



Qeyd edək ki, qədim miniatür üslubu müasir dövrdə özbək milli ənənələrini davam etdirən rəssamların əsərlərində yeni nəfəs qazanaraq öz inkişaf dövrünü keçirməkdədir.

Sərgi çərçivəsində Özbəkistan Milli Təsviri Sənət Qalereyası ilə Azərbaycan Milli İncəsənət Muzeyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədə əsasən tərəflər birgə elmi-tədqiqat işləri, təcrübə və bilik mübadiləsi aparmağı, sərgi, elmi seminar və konfranslar təşkil etməyi öhdələrinə götürüblər.

Yeri gəlmişkən, sərginin ikinci günündə iştirakçı rəssamlar tərəfindən miniatür sənətinin sirlərini öyrədən “Şərqli dərvişin portreti” adlı ustad dərsi və “Özbəkistanın müasir miniatür rəssamlığı: mədəni yaddaş, yoxsa innovasiya?” adlı mühazirə keçirilib. Mühazirədə Özbəkistan Rəssamlıq Akademiyasının akademiki, sənətşünaslıq üzrə elmlər doktoru, professor, özbək təsviri və dekorativ sənəti haqqında çoxsaylı elmi məqalə və tədqiqatların müəllifi, sərginin kuratoru Kamola Akilova çıxış edib.

***FİDAN XQ***